BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№1 Humanitar elmlər seriyası 2015*

**İPF-B14**

# İRANDA İSLAM İNQİLABININ QƏLƏBƏSİNDƏN SONRA ƏFQANİSTAN İLƏ MÜNASİBƏTLƏRİN XARAKTERİ

**Q.H.AZİZZADEH**
***Bakı Dövlət Universiteti***
***Azizzadeh.1349@gmail.com***

*Məqalədə İranda 1978-1979-cu illər İran inqilabının qələbəsindən sonra İran-Əfqanistan münasibətlərinin inkişafı prosesi təhlil olunur. Qeyd olunur ki, iki ölkə arasında diplomatik əlaqələr qurulduqdan sonra qonşu dövlətin ərazisinin sovet qoşunları tərəfindən işğal olunması ilə əlaqədar bəzən münasibətlər pisləşmişdir. Müəllif belə bir nəticəyə gəlir ki, 1979-cu ildən etibarən keçən dövr ərzində münasibətlərin inkişaf xarakteri iki ölkə xalqlarının daha da yaxınlaşmasına gətirib çıxarmışdır. Əvvəlcə sovet, sonra isə Amerika qoşunları tərəfindən Əfqanıstan ərazisinin işğalı Kabulun Tehran ilə münasibətlərinə mənfi təsir göstərdi. Həmçinin qeyd olunur ki, İran amili əfqan probleminin nizama salınması prosesində mühüm rol oynayır.*

**Acar sozlər:** islam inqilabı, əfqan qacqınları, sovet isğalı, Amerika imperializmi

İranda islam inqilabının qələbəsindən sonra yaranmış İran İslam Cümhuriyyəti özünün prinsipcə yeni xarici siyasət xəttini müəyyən etdi. Bu xətt əsasən islami dəyərlərə əsaslanmaqla yanaşı beynəlxalq hüquq normalarına da hörmətlə yanaşırdı. İİR-in xarici siyasət sahəsində qonşu Əfqanıstana münasibətdə müəyyən etdiyi kurs Tehran rəhbərliyi üçün həmişə öz əhəmiyyətini saxlamışdır.

Məsələ təkcə onda deyildi ki, İranla bilavasitə qonşu olan Əfqanıstan onunla 850 kilometrlik bir məsafədə həmsərhəddir. Onların arasında eyni zamanda uzun bir dövr ərzində ticarət-iqtisadi və mədəni-tarixi əlaqələr mövcud olmuşdur. Bu həm də hər iki çoxmillətli dövlətin xalqlarının etniki və dil cəhətdən yaxın olmalarından irəli gəlirdi.

İran şahı 1978-ci il aprel inqilabını tanımadı, 1979-cu ilin islam inqilabından sonra İranda hakimiyyətə gəlmiş şiə ruhaniləri də onu qəbul etmədilər. İran İslam Respublikası Əfqanıstanda hökumət əleyhinə olan qüvvələri, mücahidləri, xüsusilə şiə-xəzərlərin "Vəhdəte islami" partiyasını fəal müdafiə edirdi.

Tehran, Orta Şərqdə və Fars körfəzi rayonunda qərb dövlətlərinin iddialarına və liderlik etmək səylərinə qarşı çıxaraq Əfqan amilinə ilk növbədə strateji əhəmiyyət verir və elə bu məqsədlə də regionda siyasi sabitliyin bərqərar olmasına çalışırdı. Belə bir şəraitdə 1979-cu ildən etibarən xarici qüvvələrin Əfqanıstanın daxili problemlərinə hər hansı bir şəkildə müdaxiləsi rəsmi Tehranda haqlı olaraq müəyyən narahatlıq və narazılıq doğururdu.

Yarandığı vaxtdan bu günədək İİR özünün xarici siyasətində Əfqanıstana mühüm geostrateji əhəmiyyət kəsb edən region kimi baxmışdır. Təsadüfi deyil ki, Əfqanıstana münasibət məsələsi İran rəhbərliyi üçün həm ideoloji, həm də siyasi problem xarakteri kəsb edirdi. Tehran siyasətçiləri belə hesab edirdilər ki, ideoloji nöqteyi-nəzərdən İranın qarşısında duran başlıca vəzifə dünyanın müxtəlif bölgələrində təqiblərə, təzyiqlərə məruz qalan bütün müsəlmanlara kömək göstərməkdən ibarətdir.

Lakin Tehranın Əfqanıstan istiqamətindəki xarici siyasət fəaliyyətini mürəkkəbləşdirən, çətinləşdirən bir sıra amillər də mövcud idi. Belə ki, Sovet qoşunları tərəfindən 1979-cu ilin dekabrında Əfqanıstanın işğal edilməsindən sonra bu ölkədə qeyri-sabitlik hökm sürmüş, qeyri-müəyyən şərait yaranmışdı. Həmçinin mərkəzi hakimiyyət orqanlarının da olmaması üzündən ölkəyə tam nəzarət etmək mümkün olmamışdı. Belə bir vəziyyət İranın bu ölkədə cərəyan edən hadisələri diqqətlə izləməsini zəruri etmişdi.

Siyasi tərəfdən Tehran strateqləri böyük bir məsafədə həmsərhəd olduqlarına görə İranın milli təhlükəsizliyini Əfqanıstanın təhlükəsizliyindən ayırmırdılar. İİR özünün şərq qonşusu ilə qarşılıqlı münasibətləri qurarkən orada əhalinin dini tərkibini də nəzərə alırdı. Çünki Əfqanıstanda əhalinin 20 faizini şiə məzhəbli müsəlmanlar təşkil edirdi.

İran-Əfqanıstan münasibətləri öz inkişafında bir neçə mərhələdən keçmişdi. Belə ki, İranda islam inqilabının qələbəsindən sonra Əfqanıstanın Sovet İttifaqı tərəfindən işğalınadək olan dövrdə qarşılıqlı münasibətlərin qaydaya salınmasına cəhdlər edildi. Bu mərhələdən sonra Əfqanistanda Sovet işğalı dövrü başlandı (1979-1989). Sovet işğalı bitdikdən sonra ölkədə vətəndaş müharibəsi davam etdi və 1994-cü ildə Taliban hərəkatı ölkə üzərində nəzarəti ələ keçirdi. Növbəti mərhələ Talibanın hakimiyyəti illəri ərzində (1996-2001) həyata keçirilən munasibətləri əks etdirir. Nəhayət, iki ölkə arasında 2001-ci ildən sonrakı dövr.

Qeyd etmək lazımdır ki, İranda şahlıq rejiminin süqutu ərəfəsində, yəni 1978-ci ilin aprelində Əfqanıstanda baş verən hərbi çevrilişə Tehranda dərhal münasibət bildirilmədi. Orada belə qənaətə gəlmişdilər ki, Əfqanıstanda baş vermiş hərbi çevrilişdə Sovet İttifaqının əli vardır (12).

Maraqlıdır ki, bu hadisədən sonra şah öz sərhədçilərinə göstəriş vermişdi ki, əfqan qaçqınlarını İrana buraxmamaq üçün sərhəd xəttini bağlasınlar. Şah ehtiyat edirdi ki, qaçqınlarla birlikdə ölkəyə əfqanların «pozucu inqilabi ünsürləri» də daxil ola bilərlər (7).

Bununla belə, Nur Məhəmməd Təraki başda olmaqla Əfqanıstanda

hakimiyyətə gəlmiş Əfqanıstan Xalq Demokratik Partiyası (ƏXDP) hökuməti İranla sülh və dostluq şəraitində yaşayacağını bəyan etdi. Eyni zamanda İran da 1979-cu il mayın 6-da Əfqanıstan ilə normal diplomatik münasibətlər saxlamaq niyyətində olduğunu təsdiq etdi (1).

Təraki hökuməti açıq surətdə bildirdi ki, o, ƏDR-in bütün qonşuları ilə, hər şeydən əvvəl, İranla mehriban qonşuluq prinsiplərinə əsaslanan pozitiv bitərəflik siyasəti yeridəcəkdir. Bu, Əfqanıstanın rəsmi sənədlərində də öz əksini tapdı (8).

ƏDR 1979-cu ilin fevralında İranda islam inqilabının qələbəsini alqışladı. Kabul rejimi artıq fevralın 12-də M. Bazarqan başda olmaqla İranın Müvəqqəti hökumətini tanıdı. N.M.Təraki İranın yeni rəhbərliyinə göndərdiyi teleqramda bildirdi ki, «ölkələrimiz arasındakı dostluq, bir-birinin daxili işlərinə qarışmamaq və dinc yanaşı yaşamaq prinsipləri zəminində, səmimilik və mehriban qonşuluq əsasında daha da möhkəmlənəcəkdir» (9).

ABŞ-ın İrana qarşı pozuculuq fəaliyyətinin Əfqanıstan hökuməti tərəfindən pislənilməsi də Tehranda razılıqla qarşılandı. Əfqan tərəfi 1980-ci ilin aprelində bildirdi ki, əgər ABŞ imperializmi İrana qarşı hərbi qüvvə tətbiqinə cəhd göstərsə, Əfqanıstan İran inqilabının tərəfində olacaqdır. Əfqanıstanın belə bir mövqeyi Orta Şərqdə hadisələrin regiondan kənara çıxmasından ehtiyat edən Vaşinqtonun mövqeyinə təsir etməyə bilməzdi. Buna görə də İİR-ƏDR münasibətlərinin birinci mərhələsində iki ölkə arasında rəsmi səviyyədə mehriban əlaqələr quruldu. 1979-cu ilin mayında İİR-in xarici işlər naziri İ.Yəzdi qeyd etmişdi ki, Tehran Əfqanıstanın daxili işlərinə qarışmır və «öz inqilabını hər hansı bir ölkəyə, xüsusən də qonşu, dost Əfqanıstana ixrac etməyə hazırlaşmır» (2).

Tərakinin qətlindən sonra Hafizulla Əmin başda olmaqla ƏDR-in yeni rəhbərliyi belə bir ideya ilə çıxış etməyə başladı ki, guya Əfqanıstan sosializm quruculuğu yolu ilə gedir. 1979-cu ilin noyabrında ƏDR-in xarici işlər naziri Şah Vəli bildirdi ki, «biz Əfqanıstanda istismar olmayan sosializm cəmiyyəti qurmaq istəyirik. Əfqanıstanın geri qalmış inkişaf etməkdə olan ölkə olmasını nəzərə alaraq, biz sosialist inkişaf yolunu seçmişik» (10).

Moskva öz qoşunlarını 1979-cu ilin dekabrında Əfqanıstana yeritdi və bu ölkəni işğal etdi. Əmin hakimiyyətdən uzaqlaşdırıldı və bu vaxtadək Avropa ölkələrindən birində Əfqanıstanın səfiri olmuş Bəbrək Karməl ƏDR-də siyasi hakimiyyətə gətirildi. Sovet qoşunları tərəfindən Əfqanıstanın işğalı Orta Şərqdə gərginlik mənbəyi yaratmaqla yanaşı İran-Əfqanıstan münasibətlərini də pisləşdirdi. 1980-ci illərin əvvəllərində İranda əfqan qaçqınlarının sayı 2 milyon nəfərə çatdı. Elə məhz bu dövrdə qarşılıqlı münasibətlərdə mühüm məsələlərdən biri qaçqınlar problemi idi. Belə ki, İranda əfqan qaçqınlarının sayı 2 milyon nəfərə çatmışdı. Onların sosial tərkibi müxtəlif idi. Onlar bütöv ailələr halında, özlərinin bütün əmlakı və malqarası ilə gəlirdilər. Onlar bir qayda olaraq İranın Əfqanıstan ilə həmsərhəd rayonlarında – Sistan, Bəlucistan, Xorasan, Məşhəd ətrafı ərazilərdə məskunlaşırdılar (3).

1979-cu ilin dekabrında İİR rəhbərləri, o cümlədən İmam Xomeyni sovet qoşunlarının ƏDR-ə hərbi təcavüzü əleyhinə kəskin bəyanatlarla çıxış etdilər. Onlar bu aksiyanı Əfqanıstanın işğalı adlandırdılar. Məhz bununla əlaqədar İİR rəhbərliyi Əfqanıstanın sovetpərəst rəhbəri B.Karməlin və sonralar Nəcibulla-nın hökumətlərini rəsmi tanımaqdan imtina etdilər. Sovet işğalından dərhal sonra İİR öz səfirini Kabuldan geri çağırdı. İmam Xomeyni çıxışlarının birində qeyd etmişdi ki, «biz Əfqanıstanın igid müsəlman xalqını tam müdafiə edirik. Bu xalq bilməlidir ki, Allah onun tərəfindədir. Bu xalq öz sıralarını sıx bir-ləşdirməli və müharibəni Allaha inam hissilə qələbəyədək davam etdirməlidir» (4).

Ayətulla Xomeyninin bu çıxışından sonra İİR əfqan probleminin həlli üzrə beynəlxalq daimi komitəyə daxil oldu. İran nümayəndələri BMT-də və digər beynəlxalq təşkilatlarda təkcə ƏDR rəhbərliyini deyil, həm də Sovet İttifaqının siyasətini kəskin tənqid edir və pisləyrdilər. Tehran həmçinin təsdiq edirdi ki, «sovetlərin Kabulda olması islami İrana təhlükə yaradır» (11).

80-ci illərin əvvəllərində İİR rəhbərliyi Əfqanıstan silahlı müxalifətinə geniş hərbi yardım göstərmək planları ilə çıxış edirdi. Bu zaman İranda əfqan qaçqınlarının vəziyyəti ciddi surətdə mürəkkəbləşdi. Belə ki, onlara iş tapmaq çətin idi. İraq-İran müharibəsi başlandıqdan sonra qaçqınların vəziyyəti xeyli pisləşdi. Digər tərəfdən İranda fəaliyyətdə olan zavod və fabriklərin sayı azal-dığından əfqan qaçqınları üçün iş tapmaq həlli çətin olan problemə çevrilmişdi.

1980-ci ilin iyulunda Məşhəddə əfqan qaçqınlarının yayılma mərkəzi olan «Cəmiyyəte islami» təşkilatının bürosunun fəaliyyəti aşkar olunaraq dayandırıldı. Bu təşkilat təkcə dini və siyasi fəaliyyətlə deyil, həmçinin narkotik maddələr və silah qaçaqmalçılığı ilə məşğul olurdu (5).

İrandakı əfqan qaçqınlarının müəyyən hissəsi silahlı əfqan müxalifətinin sıralarına qoşulmağı üstün tuturdular. Onlar ƏDR-in sovetpərəst rejiminə qarşı müqəddəs müharibə aparırdılar. Əfqan mənbələrinin məlumatına görə həmin təşkilatların yardımı və iştirakı ilə əfqan qaçqınları sırasından siyasi partiyalar və təşkilatlar yaradılırdı. 80-ci illərin ortalarında bu partiya və qruplaşmalar Vahid İslam Cəbhəsində və ya «Səkkizlər İttifaqı»nda (bir müddətdən sonra «Doqquzlar ittifaqı» oldu) birləşdilər (13).

Əfqan mücahidləri öz növbəsində İrana keçməyə məcbur olmuş köçəri əfqan tayfaları içərisindən döyüşçülər toplayaraq onları ƏDR ərazisinə gön-dərirdilər. Əfqan qaçqınlarının müəyyən hissəsi silahlı əfqan müxalifətinin sıralarına qoşulmağı üstün tuturdular. Onlar xüsusi ərazilərdə hazırlıq keçir və onlara hərbi təlim verirdilər. Sonra onları silah-sursatla və pulla təmin edərək şourəvi qoşunlarına qarşı təxribatçılıq hadisələri törətmək üçün ƏDR ərazisinə göndərirdilər. ƏDR-in sovetpərəst rejiminə qarşı müqəddəs müharibə aparan bu mücahidlərin seçilməsi, təlimi və göndərilməsi işlərinə bir sıra təşkilatlar və cəmiyyətlər dəstək verirdilər.

Bu dövrdə Əfqanıstanda başlıca olaraq xəzərlərdən, dağlı taciklərdən, farslardan, qızılbaşlardan və bəzi digər tayfalardan ibarət 3 milyon nəfərə yaxın

şiə məzhəbli əhali yaşayırdı. Təbii olaraq onların taleyinə Tehran biganə qala bilməzdi. Bu cəhətdən xəzərlərə daha böyük diqqət yetirilirdi. Çünki onlar daha çox təqiblərə məruz qalırdılar. Nəticədə Tehran xəzərlərlə sıx əlaqələr qurmağa nail oldu.

Tehranda belə bir əminlik vardı ki, Əfqanıstanda İİR nümunəsində islam respublikası qurulacağı təqdirdə əfqan əhalisinin, o cümlədən də şiələrin maddi və hüquqi vəziyyəti yüngülləşəcək və yaxşılaşacaqdır. Bu da xəzərlərin bir çoxu arasında müsbət əks-səda doğurmuşdu. Hüquqları tapdalanan əfqan tayfalarının Tehran tərəfindən müdafiə olunması 1986-cı ilin fevralında Kabulu narahat etməyə başladı (14).

Qeyd edək ki, Tehranın Əfqanıstanda sovet təcavüzünə qarşı yeritdiyi siyasi xətt beynəlxalq aləmdə müsbət əks-səda doğurdu. İİR rəhbərliyi çalışırdı ki, əfqan müxalifətinin bütün qüvvələri vahid təşkilat halında birləşsinlər, islam dövlətlərindən birində və yaxud da Əfqanıstanın sovetpərəst rejimindən azad edilmiş hər hansı bir ərazisində əfqan mühacir hökumətini formalaşdırsınlar (6).

1983-cü ilin sonunda İranda antisovet və antiəfqan (sovetpərəst əfqan hakimiyyəti nəzərdə tutulur) etiraz kampaniyası keçirildi. Bu kampaniya sovet qoşunlarının Əfqanıstana təcavüzünün 4-cü ildönümü ilə əlaqədar təşkil edilmişdi. Dekabrda İİR XİN-nin bəyanatında Əfqanıstanda silahlı müxalifətin «şərtsiz müdafiə olunması» öz əksini tapdı. Dekabrın sonunda Tehran, Məşhəd, Zahedan, İsfahan və İranın digər şəhərlərində hakimiyyət orqanlarının icazəsilə «Əfqan qardaşlarla həmrəylik!» şüarı altında nümayişlər keçirildi.

İİR yarandığı gündən bəri onun xarici siyasət kursunda Əfqanıstana münasibətdə ardıcıl surətdə həyata keçirməyə çalışdığı xətt onun müstəqil yaşamasını təmin etməkdən ibarət olmuşdur. Bu işdə böyük dövlətlərin Əfqanıstanın daxili işlərin müdaxiləsinin yolverilməz olduğu vurğulanmışdır. Həyat göstərdi ki, İran amilini nəzərə almadan əfqan probleminin nizama salınması olduqca çətin məsələdir. Orta Şərqdə nüfuz sahibi olan İİR-in Əfqanıstanın bərpası prosesində yaxından iştirakı və ona göstərdiyi hərtərəfli əməli yardımlar bunu sübut edir.

80-ci illərin sonlarına doğru beynəlxalq aləmdə ilk ciddi dəyişikliklər baş verdi və beynəlxalq gərginlik zəifləməyə başladı. Xüsusilə, Sovet-Amerika münasibətlərində yaxşılaşma baş verdi. Həmçinin SSRİ ilə Çin arasında münasibətlər normallaşmağa başladı. Belə bir şəraitdə Tehran tənqidi dayandırmadan, 80-ci illərin sonlarından Sovet rəhbərliyinin təşəbbüsü ilə əfqan məsələsi üzrə Moskva ilə dialoqa başladı. İran islam rəhbərliyi bununla əlaqədar olaraq bildirmişdi ki, Sovet-İran münasibətlərinin yaxşılaşması əfqan məsələsinin həllində SSRİ-nin nə qədər müsbət addımlar atmasından birbaşa asılı olacaqdır.

Sovet işğalı aradan qaldırıldıqdan sonra Əfqanıstanda daxili siyasi şəraitin sabitləşdirilməsində maraqlı olan İran, bu ölkədə bütün milli-etnik qrupların maraqlarının balansı əsasında siyasi nizamlanmaya tezliklə nail olunmasını və bütün milli və dini azlıqların, əfqan cəmiyyətinin siyasi qüvvələrinin

iştirak edə biləcəyi geniş əsasda hökumətin yaradılması uğrunda çıxış edirdi.

İran müstəqil bir dövlət kimi Əfqanıstanın mövcud olduğu bütün tarixi dövrlərdə bu ölkədə öz nüfuzunu möhkəmləndirməyə çalışmışdır. Tehran təbii olaraq bu ölkəyə özünün mühüm maraq zonası kimi baxmışdır. Bu məqsədlə İran müxtəlif təsir vasitələrini işə salmışdır. Bunlar bu və ya digər dərəcədə qonşu Əfqanıstanda İranın maraqlarını nəzərə almağa imkan verirdi.

## ƏDƏBİYYAT


**I. Fars dilində**

1. Ayəndeqan, 06.05.1979.
2. Ettelaat. 21.05.1979.
3. Sobhe azadeqan. 20.05.1981.
4. Bamdad. 11.02.1980.
5. Ettelaat. 22.01.1990.
6. Həqiqəte enqelabe saur. 13.03.1984.

**II. İngilis dilində**

7. Undeclared War. Armed intervention and other Forms of interference in the internal Affairs of the Democratic Republic of Afqhanistan. DRA Ministry of Foreign Affairs. Kabul, 1981, 429 p.
8. White Book. Foreign Policy Dokuments of the Democratic Republic of Afganistan. DRA Ministry of Foreign Affairs. Kabul, 1981, 583 p.
9. The Kabul New Times. 13.02.1979.
10. The Kabul New Times. 30.11.1979.
11. Indian Express. 26.09.1983.

**III. Rus dilində**

12.Спольников В.Н. Афганистан: исламская оппозиция. Истоки и цели. М.: Наука, 1990, 249 с.
13. Журн. Азия и Африка сегодня. 1986, № 4, с.17.
14. Агаев С.Л. Иран между прошлым и будущим. События, люди, идеи. М.: Наука, 1986, 317 с.


## ХАРАКТЕР ОТНОШЕНИЙ С АФГАНИСТАНОМ ПОСЛЕ ПОБЕДЫ ИСЛАМСКОЙ РЕВОЛЮЦИИ В ИРАНЕ

**Г.Х.АЗИЗЗАДЕ**

### РЕЗЮМЕ


В статье рассматриваются процессы развития ирано-афганских отношений после победы исламской революции 1978-1979 гг. в Иране. Отмечается, что после установления дипломатических связей порою отношения между двумя странами ухудшались из-за оккупации соседнего государства Советскими войсками. Автор пришел к такому выводу, что характер развития отношений в течение последних 30 лет привели народы двух стран к еще большему сближению. Оккупация сначала советскими, а затем американскими войсками территории Афганистана, отрицательно повлияла на его отношения с Ираном. Также отмечается, что иранский фактор играл важную роль в процессе урегулировании афганской проблемы.



**Ключевые слова**: исламская революция, афганские беженцы, советская оккупация, американский империализм

**THE NATURE OF RELATIONS WITH AFGHANISTAN AFTER THE VICTORY OF THE ISLAMIC REVOLUTION IN IRAN**

**G.H.AZIZZADEH**

**SUMMARY**

The article examines the processes of development of the Iran-Afghan relations after the victory of the Islamic Revolution of 1978-1979 in Iran. It is noted that after the establishment of diplomatic ties sometimes the relationship between the two countries worsened because of the occupation of the neighboring state by Soviet troops. The author came to the conclusion that the nature of the relationship in the past 30 years have brought the two nations to even greater convergence. Occupation of Afghanistan first by Soviet and later by U.S. troops adversely affected its relations with Iran. It is also noted that the Iranian factor plays an important role in resolving the Afghan problem.

**Key words**: Islamic revolution, the Afghan refugees, the Soviet occupation, U.S. imperialism